**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN**
**ELMİ ŞURASININ 21 noyabr 2022-Cİ İL TARİXDƏ**
**KEÇİRİLMİŞ İCLASININ 04 №-Lİ**
**P R O T O K O L U**

**SƏDR :** **E.S.İSAYEV**
**KATİB:** **O.C.CƏFƏROV**

**İŞTİRAK EDİRDİ:** Elmi Şuranın 49 nəfər üzvündən 39 nəfər.

**G Ü N D Ə L İ K**

1. Dövlət proqram və sərəncamlarının icrası vəziyyəti

**Rektor**
**Elbrus İsayev**

2. İncəsənət fakültəsində tədris, elmi-tədqiqat və tərbiyə işlərinin təşkili haqqında

**Fakültə dekanı**
**Cavid İsmayılov**

3. Elmi konfrans və simpoziumların planının müzakirəsi və təsdiqi

**Elm və İnnovasiyalar bölməsinin müdiri**
**Rza Məmmədov**

4. Xarici tələbələr üzrə dekanlığın hesabatı

**Dekan**
**Ceyran Quliyeva**

5. Naxçıvan Dövlət Universitetində iaşə xidmətinin vəziyyəti haqqında

**Universitet HİK-nin sədri**
**Nicat Yaqubov**

6. Cari məsələlər

**Elmi Şura qərara alır: 1**

1. Rektor Elbrus İsayevin məsələ ilə bağlı çıxışı nəzərə alınsın.
2. Universitetdə dövlət proqramı və sərəncamlarının icrası vəziyyəti qənaətbəxş hesab edilsin.
3. Dövlət proqramı və sərəncamlarının icrası vəziyyəti daim diqqət mərkəzində saxlanılsın.

4. Fakültə Elmi şuralarının gündəliyinə salınaraq müzakirə olunsun.
5. Dövlət proqramı və sərəncamlarından irəli gələn məsələlərin həyata keçirilməsi ilə bağlı geniş hesabatlar hazırlansın.
6. Qərarın icrasına nəzarət universitetin rektoru Elbrus İsayevə tapşırılsın.

**Elmi Şura qərara alır: 2**

1. Fakültə dekanı Cavid İsmayılovun məlumatı nəzərə alınsın və qənaətbəxş hesab edilsin.
2. Fakültədə tələbə qəbulu ilə bağlı təbliğat işləri yüksək səviyyədə aparılsın.
3. Maddi texniki bazanın qorunmasına və səmərəli istifadəsinə diqqət artırılsın.
4. Professor-müəllim heyətinin tədris materiallarının LMS-də yerləşdirilməsinə nəzarət olunsun.
5. Fakültədə qrafikə uyğun olaraq hər bir müəllimin açıq dərsi dinlənilsin və müzakirə olunsun.
6. Fakültədə mövcud olan tədris kabinələrində dərslərin keçirilməsinə diqqət artırılsın.
7. Elmi fəaliyyət və tərbiyə işinin təşkili işi hər zaman diqqət mərkəzində saxlanılsın.
8. Elmi-tədqiqat işlərinin keyfiyyətinə nəzarət artırılsın.
9. Fakültədə Elmi şurasında Dövlət Proqram və sərəncamlarından irəli gələn məsələlər mütəmadi müzakirə olunsun hesabatlar hazırlansın.
10. Hesabatdan irəli gələn məsələlər fakültə Elmi Şurasında mütəmadi müzakirə olunsun və tədris hissəsinə arayış təqdim olunsun.
11. Qərarın icrasına nəzarət fakültə dakanı Cavid İsmayılova tapşırılsın.

**Elmi Şura qərara alır: 3**

1. 2023-cü ildə Naxçıvan Dövlət Universitetində keçiriləcək elmi konfrans və simpoziumların planı təqdim edilmiş şəkildə təsdiq edilsin.
2. Kafedra müdirlərinə tapşırılsın ki, professor-müəllim heyətinin konfranslarda iştirakını və məruzələrlə çıxışlarını təmin etsinlər.
3. Digər elm və ali təhsil müəssisələri ilə müştərək konfransların keçirilməsi məsələsinə diqqət artırılsın.
4. Qərara nəzarət Elmi və İnnovasiyalar Bölməsinin müdiri Rza Məmmədova tapşırılsın.

**Elmi Şura qərara alır: 4**

1. Xarici tələbələr dekanlığının 2021/2022-ci tədris ilinə aid illik hesabatı qənaətbəxş hesab edilsin.
2. Ayrı-ayrı fakültələrdə əcnəbi tələbələrlə, eləcə də hazırlıq kursunda təhsil alan dinləyicilərlə vətənpərvərlik mövzusunda, universitetin vahid geyimi, tələbələrin

dərsə davamiyyəti və universitetdə, eləcə də ictimai yerlərdə intizam qaydaları haqqında söhbətlər aparılması davam etdirilsin.

3. Universitetdə əcnəbi tələbələrin həm təhsil prosesində, həm də universitetin ictimai işlərində fəallığı təmin edilsin.
4. Hazırlıq kursunda təhsil alan dinləyicilərin Azərbaycan dilini daha da dərindən mənimsəməsi üçün dil kurslarının fəaliyyəti davam etdirilsin.
5. Qərarın icrasına nəzarət Ceyran Quliyevaya tapşırılsın.

**Elmi Şura qərara alır: 5**

1. Naxçıvan Dövlət Universitetində iaşə xidmətinin vəziyyəti haqqında Elşən Məmmədovun hesabatı nəzərə alınsın və məqbul hesab edilsin.
2. Universitet ərazisində yerləşən iaşə mərkəzlərinə ciddi nəzarət olunsun.
3. İaşə mərkəzlərində satılan məhsulların yararlılıq müddətinə və yeməklərin təzəliyinə müntəzəm diqqət yetirilsin.
4. İaşə obyektlərində mütəmadi olaraq tibbi-gigiyenik qaydalara əməl olunsun.
5. Qərarın icrasına nəzarət universitet HİK-nin sədri Nicat Yaqubova tapşırılsın.